# Azərbaycan region ölkələri ilə əməkdaşlığı genişləndirir



***Bir regionda xaos varsa, orada inkişafdan danışmaq mümkün deyil. Çünki qonşu dövlətlər arasında baş verən qarşıdurmalar ikitərəfli regional əlaqələrin kəsilməsinə səbəb olur, dolayı yolla iqtisadiyyatın inkişafına əngəl törədir. Cənubi Qafqaz 30 ildir belə bölgələrdən biri idi. Ötən əsrin 80-ci illərinin sonundan başlanan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu gün tarixə qovuşsa da, bir qərinəyə yaxın müddət ərzində bölgəyə böyük ziyan vurmuşdur.***

SSRİ-nin dağılmasından sonra müstəqillik əldə edən digər ölkələr kimi Azərbaycanın da əsas xarici siyasət istiqaməti qonşu dövlətlərlə qarşılıqlı iqtisadi və siyasi əlaqələr yaratmaq idi. Lakin ilk vaxtlar hakimiyyətdə olan təsadüfi şəxslər bu vəzifəni reallaşdıra bilmir, əksinə, müstəqilliyimizi təhlükə altına atırdılar. Yenicə müstəqillik qazanan gənc Azərbaycan dövləti nəinki qonşuluq əlaqələrini gücləndirir, əksinə siyasi və iqtisadi blokadaya düşürdü. Bu prosesin davam etdiyi bir vaxtda xalqımız çıxış yolunu ulu öndərin hakimiyyətə qayıtmasında görürdü. Belə də oldu. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkəmizdə müstəqilliyin yeni mərhələsinə – iqtisadi və siyasi tərəqqi dövrünə qədəm qoyuldu. Təkcə qonşu yox, eləcə də dünya dövlətləri ilə iqtisadi əlaqələr yaranmağa, mövcud əlaqələr gücləndirilməyə başlandı.

Respublikamızda bütün sahələr üzrə genişmiqyaslı islahatlar həyata keçirildi. Ümummilli lider əvvəlcə keçmiş iqtidarın xarici siyasət sahəsində etdiyi kobud xətaları və bu xətaların nəticələrini aradan qaldırmaq məqsədilə işə başladı. Azərbaycanda dövlətin strateji maraqlarını və bölgə dövlətlərinin, eləcə də Cənubi Qafqazda xüsusi təsir qüvvəsinə sahib olan dövlətlərin maraqları ilə uzlaşdırılan siyasət yürüdülməyə başlanıldı. Bu siyasi xətt ulu öndər hələ Milli Məclisin Sədri olarkən müəyyən edilmişdi. Uzaqgörən siyasətçi parlament sədri seçildiyi vaxt Azərbaycanın xarici siyasət meydanında başlıca vəzifələrindən bəhs etmiş, istiqamət müəyyənləşdirmişdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir. Azərbaycanın sağlam xarici siyasəti olmalıdır. Düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır. Elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında müstəqil bir dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır".

Ulu öndər qeyd edirdi ki, respublikamızda xarici siyasət sahəsində son illər ərzində həyata keçirilən özünütəcrid "kampaniyası" tamamilə yolverilməzdir. Bu, Azərbaycanın maraqlarına ziddir.

Özünütəcrid siyasətinin nəticələrindən biri də dünya dövlətlərinin Azərbaycanı tanımaması idi. Bizi tanımayan dövlətlər isə problemlərimizi duya bilməzdi. Bu isə o deməkdir ki, Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi vəhşilikləri, soyqırımlarını və ən əsası işğalı dünyaya çatdırmaq üçün əvvəlcə özümüzü, mədəniyyətimizi tanıtmalıyıq. Bu mənada xarici siyasət istiqamətində həyata keçirilən islahatlar mühüm əhəmiyyət kəsb edirdi. Ulu öndər təcrid siyasətini "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı.

Tezliklə Avropa ölkələri ilə, ABŞ-la, Rusiya və qardaş Türkiyə ilə qarşılıqlı iqtisadi və siyasi əlaqələrin yaradılması istiqamətində addımlar atıldı, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin qurulması üçün siyasi kurs müəyyən edildi. Təbii ki, əvvəlcə yaxın ölkələrlə münasibətləri sahmana salmaq və bərpa etmək lazım idi. Respublikamızın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu istiqamətdə atılan ilk addımlardan biri idi. Beləliklə, bir əsrə yaxın vahid bir imperiyanın daxilində sıx qarşılıqlı əlaqələrimiz olan respublikalarla müstəqillik dövründə də ikitərəfli münasibətlərin bərpa edilməsi iqtisadi inkişaf sahəsində mühüm əhəmiyyət kəsb edirdi. Bu, həm də blokada mühitindən çıxmaq demək idi.

XXI əsr Azərbaycanı isə artıq Cənubi Qafqaz regionunun lider dövlətidir. Bölgənin əsas söz sahibi kimi, Azərbaycan çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil və heç bir kənar qüvvədən asılılığı olmayan xarici siyasət həyata keçirir. Respublikamız regionda yeganə ölkədir ki, daxili və xarici siyasət kursu düşünülmüş şəkildə inkişaf edir, iqtisadi sistemi gücləndirilir, bunula yanaşı, regional təhlükəsizliyin təmin olunmasına da böyük töhfələr verir. Qeyd edək ki, hazırda ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji və kommunikasiya layihələri Cənubi Qafqazda siyasi sabitliyin təmin edilməsində əhəmiyyətli rol oynayır. Ölkəmiz təkcə regionda deyil, həm də dünya üzrə sülhyaratma prosesində yaxından iştirak edir, öz əhəmiyyətli və praktik fəaliyyəti ilə təhlükəsizliyin və sülhün möhkəmləndirilməsində, eləcə də bərpasında iştirak edir.

Prezident İlham Əliyevin məqsədyönlü xarici siyasət kursu nəticəsində Azərbaycan regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilib. Ölkəmiz bir sıra önəmli əməkdaşlıq formatlarının təşəbbüskarı olub. Azərbaycanın beynəlxalq səviyyədə reallaşdırdığı xarici siyasət strategiyası xarici ekspertlər tərəfindən daim təqdir olunan siyasi model kimi qiymətləndirilir. Dövlət başçısının təşəbbüsü ilə formalaşan bu sistem ilk növbədə xalqın maraqlarına əsaslanır.

Bu siyasi xətt Vətən müharibəsində qazanılan zəfərin, torpaqlarımızın işğaldan azad edilməsini təmin edən ümumi hazırlıq mərhələsinin təməl sütunlarından biri idi. Belə ki, xarici siyasətdə əldə olunan uğurlar iqtisadiyyatımızın güclənməsinə gətirib çıxardı. Prezidentimiz zəfərlə bağlı danışarkən bir məqamı hər zaman xüsusi qeyd edir. Bildirir ki, biz öz əzmimizlə müstəqil, xarici qüvvələrdən asılı olmayan iqtisadiyyat yaratmışıq. Əgər belə olmasaydı, biz nəinki qələbə qazana, hətta müharibəyə başlaya da bilməzdik.

II Qarabağ savaşından sonra bölgədə yaranan yeni reallıqlar onu deməyə əsas verir ki, yaxın gələcəkdə Cənubi Qafqazda iqtisadi inkişaf dövrü başlayacaq. Kommunikasiyalar açılacaq və bu sayədə ikitərəfli əlaqələr güclənəcək. Bu istiqamətdə "3+3" təşəbbüsü var. İlham Əliyev "3+3" təşəbbüsünün region ölkələri arasında əməkdaşlığın gücləndirilməsinə yönəldiyini bildirmişdir. Bu təşəbbüs Rusiya, Türkiyə, İran və Azərbaycan tərəfindən dəstəklənib. Gürcüstan bu məsələyə etiraz edib. Ermənistanın isə mövqeyi bəlli deyil. Onlar bu məsələyə nə "hə" deyib, nə "yox". Dövlət başçısı bildirib ki, əgər bütün mövqelər müsbət olarsa, sürətlə işə başlamaq olar: "Bu isə öz növbəsində həm regionda sabitləşməyə və təhlükəsizlik risklərini minimallaşdırmağa kömək edəcək, həm də şərait yaradacaq ki, region ölkələrinin qarşılıqlı fəaliyyətini onlar özləri müəyyən etsinlər, necə yaşayacaqlarını özləri həll etsinlər. Region hansısa kənar təsirdən xilas olacaq. Bizim mövqeyimiz belədir. Biz onu nümayiş etdiririk və təkcə nümayiş etdirmirik, biz bu istiqamətdə iş aparırıq. Ermənistan istisna olmaqla bütün qonşularımızla yaxşı, demək olar ki, yaxın dostluq münasibətlərimiz var. Biz bu münasibətləri qiymətləndiririk. Buna görə, əgər Ermənistan bu formata qoşulsa, hamının xeyrinə olacaq. Biz bu əzmdəyik. Lakin ola bilsin, onlara vaxt lazımdır. Ola bilsin, onların keçirdiyi psixoloji şok hələlik onların mühüm addımlar atmasına imkan vermir".

Dövlət başçımızın bu qənaəti ermənilərin bütün ideologiyasının ekspansionizm, işğalçılıq, saxta tarix əsasında qurulmasından qaynaqlanır. Onlar özlərini inandırıblar ki, haqlıdırlar. Onların faciəsi budur. İndi onlar yeni tərzdə yaşamalıdırlar. Tamamilə başqa reallıqlarda yaşamalı və başa düşməlidirlər ki, Azərbaycan bir də heç vaxt ötən əsrin 90-cı illərindəki, gənc, təcrübəsiz dövlət olmayacaq. Onlar yeni qüvvələr nisbətini, geosiyasi şəraiti düzgün qiymətləndirməlidirlər. Yenə illüziyalara, hansısa mifoloji röyalara qapılmamalı, vəziyyəti düzgün qiymətləndirməlidirlər.

Prezident İlham Əliyev hər zaman nüfuzlu xarici platformalarda Azərbaycanın haqq işini dünya ictimaiyyətinə çatdırır. Biz həm müharibə dövründə, həm də sonrakı mərhələdə dəfələrlə bunun şahidi olmuşuq. Yeri gəlmişkən qeyd edək ki, dövlətimizin başçısı ötən ilin sonlarında "Şərq Tərəfdaşlığı" Zirvə toplantısında iştirak etmək üçün Belçikanın paytaxtı Brüsselə səfər edib. Prezident İlham Əliyev səfər çərçivəsində NATO-nun baş katibi Yens Stoltenberqlə görüşüb, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri ilə üçtərəfli görüşlərdə iştirak edib. Səfərin son günü dövlətimizin başçısı Moldova Prezidenti Maya Sandu, Ukrayna Prezidenti Volodimir Zelinski ilə görüşüb, eləcə də sammitdə iştirak edib. Prezident İlham Əliyev Brüsseldə İspaniyanın məşhur "El Pais" qəzetinə müsahibə verib. Qeyd edək ki, müsahibə zamanı, keçirilən görüşlərin gündəliyindən, Azərbaycanın Vətən müharibəsində qazandığı zəfərdən sonra Cənubi Qafqazda yaranan yeni reallıqlardan bəhs edən dövlət başçısı, həm də Zəngəzur dəhlizinin, ümumilikdə regionun kommunikasiya məsələlərinin gələcəyi ilə bağlı sualları cavablandırıb.

Martın 15-də Prezident İlham Əliyevlə ABŞ Dövlət katibi Antoni Blinken arasında telefon söhbəti olub. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays bu barədə bəyanat verib. Bəyanatda qeyd edilib ki, telefon danışığı zamanı ABŞ-ın dövlət səviyyəsində Azərbaycanla ikitərəfli münasibətlərə verdiyi önəmdən, bu münasibətlərin davamlı inkişafının iki tərəf üçün də mühüm əhəmiyyətindən bəhs edilib. ABŞ Dövlət katibi bildirib ki, ölkəsi Cənubi Qafqazda dinc, demokratik və firavan gələcəyə sadiqdir və bu məsələlərə öz töhfəsini verməyə hazırdır. Bəyanatda, həmçinin ölkəmizdə insan hüquqları və fundamental azadlıqlara hörmətin vacibliyi vurğulanıb.

Ümumiyyətlə, Cənubi Qafqazın lideri olaraq Azərbaycanla münasibətlərin inkişafı, çoxşaxəli əlaqələrin möhkəmləndirilməsi təkcə bu regiona investisiya yatırmaq istəyən ölkələrin deyil, həm də dünyada söz sahibi olan nəhəng dövlətlərin maraq dairəsindədir. Bu baxımdan Prezidentimizin yüksək peşəkarlıqla yürütdüyü balanslı xarici siyasətin çox böyük rolu var.

**İmran ƏLİYEV, "Xalq qəzeti"**